# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ AQRAR SAHƏNİN BƏRPASININ ÖLKƏNİN KƏND TƏSƏRRÜFATININ İNKİŞAFINA TƏSİRİ

**Günel Məmmədova**

*AMEA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutu*

Azərbaycan 44 gün ərzində tarixi qələbə qazanaraq, öz torpaqlarını azad etdi, düşmənə sarsıdıcı zərbələr endirdi, Ermənistanı məğlub etdi. Beləliklə, Ermənistanın 30 il davam edən işğalçılıq siyasətinə son qoyuldu. Prezident İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan ordusunun işğaldan azad etdiyi torpaqlar aqrar sahənin inkişafı üçün qarşıda mühüm vəzifələr qoymaqla yeni imkanlar yaratdı.

Azad edilmiş torpaqlarda kənd təsərrüfatının inkişafı sistemli xarakter almalıdır. Zonanın həm bitkiçilik, həm də heyvandarlıq sahəsində çox böyük potensialı var. Kəlbəcər, Laçın, Qubadlı rayonlarında çox böyük örüş sahələri, otlaq sahələri vardır. Bu ərazilərdə sovet dövründə taxılçılıq, pambıqçılıq, üzümçülük, tütünçülük, baramaçılıq, bağçılıq, tərəvəzçilik, heyvandarlıq çox geniş vüsət almışdı. Arıçılıq bütün bölgə üçün spesifik idi. Burada ənənəvi olaraq baramaçılıq təcrübəsi olmuşdur. Regionda bitkiçilik sahəsində əsas yeri taxılçılıq və yem məhsulları tuturdu. Ağdərə, Cəbrayıl, Zəngilan, Ağdam və Füzuli rayonlarında meyvəçilik, tütünçülük və taxılçılıq üçün münbit şərait vardır. Ümumiyyətlə, azad edilmiş torpaqlarda əsas fəaliyyət sahələri kənd təsərrüfatı, kənd təsərrüfatı emalı sahələri olmalıdır ki, bölgənin təbiiliyi qoruna bilsin. Burada bu işlər planlı şəkildə görülməlidir. Birincisi, ərzaq təhlükəsizliyi üçün, ikincisi, ixrac potensialının artırılması məqsədilə. Ona görə də burada ixrac potensialı şaxələndirilməlidir.

İşğaldan azad edilmiş torpaqlarda böyük əkin sahələri vardır. Bu ərazilərdən istifadə üçün ilk növbədə həmin ərazilər minalardan təmizlənməlidir və artıq bununla bağlı işlər görülür. Azad olunmuş torpaqlarda kənd təsərrüfatı, xüsusilə bağçılıq sahəsi çox ciddi inkişaf edə bilər. Üzümçülüyün böyük potensiala malikdir. Sovet dövründə ərazidə böyük üzüm bağları var idi. Bununla yanaşı, bölgədə böyük taxıl sahələri var. Hazırda həmin torpaqlarda əkinlərin aparılması, o cümlədən çoxillik əkmələrə aqrotexniki qulluq tədbirlərinin göstərilməsi məqsədilə ilkin işlərə başlanılmışdır. Kənd təsərrüfatına yararlı əkin sahələrinin geniş olması və bu zonalarda suvarma probleminin olmaması aqrar sahənin inkişafına təkan verəcəkdir. İşğaldan azad olunmuş ərazilərin inkişaf etdirilməsi üçün ilk növbədə uzun illər istifadəsiz qalan torpaq sahələrinin yararlı hala gətirilməsinə ehtiyac vardır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, biz o torpaqları yenidən həyata qaytarmalıyıq. Artıq işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının gələcək inkişafının planlaşdırılmasına başlanılmışdır. Qarabağ ölkəmizin ən gözəl və bərəkətli regionlarından biridir. Bu regionun perspektivləri Azərbaycanın davamlı inkişafı üçün çox vacibdir. Regionun bərpası ilə bağlı bizi çox böyük işlər gözləyir.